

*MOVLUD TEYMUR*

### ULU ÖNDƏRƏ

Sənin yerin deyil, o yatdığın yer,
Hər səsin, hər sədan zəfərdir, zəfər!
Məzara - yerinə düşməni göndər,
Dur bu əzəməti, ucağılı gör,
Ölüm yaraşmayır sənə, ey Öndər!

Hər bina yanında yüz bina bitir,
Zirvəsi ulduza, günəşə yetir.
Oyan bu yuxudan bir müjdə yetir,
Dur bu əzəməti, ucalığı gör,
Oğlunda hünəri, bacarığı gör!

Ellər alqış deyir Prezidentinə,
Əvəzsiz işinə, min xidmətinə.
Gündə qayçı vurur bina lentinə,
Dur bu əzəməti, ucalığı gör,
Saysız göydələni, bu növrağı gör!

Özündən olmadı bu yüksəlişlər,
Sənin hesabına oldu bu işlər...
Deyirəm bu sözü hər axşam, səhər:
Dur bu əzəməti, ucalığı gör,
Salınan parkları, bağca, bağı gör!

Mövludun fərəhdən qabardı köksü,
Görəndə bu nəhəng işləri, düzü,
Bu oldu qəbrinin üstdə son sözü:
Dur bu əzəməti, ucalığı gör,
Bu gözəl növrağı, bu xoş çağı gör!..

### XALQ ONU ƏZİZ BİLİR

Heydər quran dövlətin,
Ərşi işıqdı, şamdı.
Gücü, əzmi, qüdrəti,
Şan-şöhrəti İlhamdı!

Qurur, tikir, yaradır,
Xalqda inam oyadır.
Xalq da çox gözəl dadır
Bu neməti, İlhamdı!

Uğurlu xidmətləri,
Bəzəyir kənd, şəhəri.
Hamı görür hünəri,
Bu zəhməti, İlhamdı!

Haqqa haqq deyir ellər,
Can deyir, öyür ellər.
Nəğməyə dönür dillər,
Xoş söhbəti, İlhamdı!

Dünya bilir, ərz bilir,
Azərbaycan yüksəlir.
Xalq onu əziz bilir,
Məhəbbəti, İlhamdı!

### BİZİM BAŞÇIMIZ

Əqidə sahibi, məslək sahibi,
Ürək sahibidir bizim başçımız.
Firavan görməyə Azərbaycanı
Dilək sahibidir bizim başçımız.

Ot kökü üstündə bitər həmişə,
Heydər məktəbinin yetirməsidir.
O da qiymət verir əmələ, işə,
Siyasət əbədi bünövrəsidir.

Daim əməliylə fəxr elədiyim,
Böyük insanlardan biridir o da.
Düz sözə, düz işə şərəf bildiyim,
Xalqa yananlardan biridir o da.

Heydər Əliyevdən aldı dərsini,
Verməz bu dünyada haqqı nahaqqa.
Bu yerdə yaşadır onun izini,
Yaxşını heç zaman verməz ayağa.

Saxta ürəklərə, yaltaq üzlərə,
Çırpır hər sözünü bir şillə kimi.
Deyir öz payını götürsün hərə,
Düzlüyə köklənsin hər qəlbin simi.

Ana torpağımız Azərbaycanın
Günbəgün dəyişir abü-havası.
Olub damarlarda dövr edən qanın
Təmizlik mayası, düzlük mayası.

Çıraqban görməyə Azərbaycanı,
Dilək sahibidir bizim başçımız.
Əqidə sahibi, məslək sahibi,
Ürək sahibidir bizim başçımız.

### HƏQİQƏT

Nə deyim, həqiqət göz önündədi,
Yenilik, inkişaf Vətənimdədi.
Arzumun çiçəyi çəmənimdədi,
Bərəkət, bol-bəhrə bu diyardadır,
Bir söz, Azərbaycan ucalardadır!

### AZƏRBAYCAN

Azərbaycan! Canım, ruhum, bəbəyim,
Azərbaycan! Vuran qəlbim, ürəyim.
Azərbaycan! Ömür boyu gərəyim,
Mən onunla fəxr edirəm dünyada!

Azərbaycan yoxsa canım olmasın,
Damarımda axan qanım olmasın.
Yerim, göyüm, asimanım olmasın,
Çox çəkərəm onsuz sitəm dünyada.

Atam burda, anam burda, mən burda,
Xoş dolanış, xoş güzəran, gün burda.
Qarşı burda, əvvəl burda, ön burda,
Onunladır babam, nənəm dünyada.

Şöhrət tacı başındadır ölkəmin,
Torpağında, daşındadır ölkəmin.
Milyon illik yaşındadır ölkəmin,
Bir aləməm burda, aləm, dünyada.

Mövlud Teymur doydum deməz gülündən,
Hər an öpər günəşinin telindən.
Sərinlənər dağdan əsən yelindən,
Bu dağlardan çətin enəm, dünyada.

### BAKI

Gündən-günə gözəlləşən, ucalan,
Bakım mənə əzizlərdən əzizdi.
Gözəlliyi könül açar, göz oxşar,
Küçələri ayna kimi təmizdi.

Binaları düzülübdür yan-yana,
Ağacları kölgə salıb eyvana.
Mən heyranam bu səliqə-sahmana,
Ömrü-günü gözəlliklə əkizdi!

Buzovnası, Mərdəkanı var onun,
Gül yetirən gülüstanı var onun.
Qaradağı, Qovustanı var onun,
Qızıl nefti dənizdə bir dənizdi.

Gözəlləri gül geyimdə-geçimdə,
Odur mənim qüdrətim də, gücüm də.
Bütün gözəl şəhərlərin içində,
Bakım mənə əzizlərdən əzizdi.

### ALNIAÇIQ ŞƏHƏRDİ

Bakı nəhəng şəhərdi,
Gözəl, qəşəng şəhərdi.
Hərdən quzu küləkli,
Hərdən pələng şəhərdi.

Yorulmayır, yormayır,
Tikir, qurur, durmayır.
Ətrini ərzə yayır,
Banuçiçək şəhərdi.

Qorqud nişanəlidi,
Heydər zamanəlidi,
İlham quran əlidi,
Mehriban, şux şəhərdi.

Alim, pedaqoqludu,
Şeir, sənət yoludu.
Müqəddəsdi, uludu,
Gözləri tox şəhərdi.

Nə istəsən var onda,
Dövlət onda, var onda.
Bəhrə onda, bar onda,
Bağçası çox şəhərdi.

Mövlud deyər ömür, çağ,
Burda keçir xoş ancaq.
Bu dünyada üzüağ,
Alnıaçıq şəhərdi!

### XOŞ GƏLDİN DEYİR

Körpülər, keçidlər şəhəri Bakı,
Gələn qonaqlara xoş gəldin deyir.
Dünyanın ən müdrik ulu xalqıyla,
Azad ölkəsiylə tuş gəldin deyir.

Cənnət axtardığın yer, guşə burda,
Çəmənlik, dağ, dərə, göy meşə burda.
Ətirli gül-çiçək, bənövşə burda,
Olsun şərbət suyu nuş gəldin, deyir.

Əgər xoş niyyətlə gələn gəlirsə,
Sevgi, məhəbbətlə gələn gəlirsə,
Gəlib verəcəksə ziyan bir kəsə,
Başına qara bir daş gəldin, deyir.

Burda Nizamilər, füzulilər var,
Burda Koroğlular, Fətəlilər var.
Burda gör nə qədər Heydərsevər var,
Nəğməni Öndərə qoş gəldin, deyir!..

### HEYDƏR ƏLİYEVİN HEYKƏLİ ÖNÜNDƏ

Gələn nəsillərə onu göstərin,
Dünyanın ən böyük, nəhəng oğlunu.
Göstərin deyin ki, o kəsdi tamam,
Odlu güllə kimi yağan dolunu.

Dörd yandan nişangah olmuşdu bağrı,
Tutmuşdu milləti dərd, azar, ağrı.
Onu bəxş elədi bizə o Tanrı,
Axtardı, aradı nicat yolunu.

Oldu doğma, əziz bizə deyirəm,
Gəlməsin heç zaman gözə deyirəm.
Dedi mən sözümü üzə deyirəm,
Sevdi hər insanı - Tanrı qulunu.

Xoş günə caladı Azərbaycanı,
Gülüstan elədi doğma məkanı.
Gəlin, qızı bildi hər bir ananı,
Öpərək boynuna saldı qolunu.

### XALQ ŞAİRİ NİGAR RƏFİBƏYLİYƏ

Məhsəti, Natəvan, Heyran xanım tək,
Nigar Rəfibəyli el-el dolanır.
Oxunur yüz ildir ağızda, dildə,
Səsi külək-külək, yel-yel dolanır.

Aşır Savalanı, Təbrizə çatır,
Xoşginab, Mərəndə, Səlmasa çatır.
Çoxa çox yetibdi, hər aza çatır,
Gəzir şana-şana, tel-tel dolanır.

Dinlənir həvəslə, dinlənir zövqlə,
Tükənməz arzuyla, tükənməz eşqlə.
Coşur Dəclə-Fərah, Dubay, Dəməşqlə,
Açır çiçək-çiçək, gül-gül dolanır.

Keçir Asiyanı, Turana çatır,
Gəzir Qərbi, Şərqi, Hind-Çinə çatır,
Məkkə, Mədinəyə, Yəmənə çatır,
Dinir dəniz-dəniz, sel-sel dolanır.

Nigar çiçək kimi gülzarlardadır,
Nəğmə tək ellərdə, diyarlardadır.
Mövludun şerində, şüarlardadır,
Gəzir bayraq-bayraq, el-el dolanır,
Ölməz əsərləri əl-əl dolanır.

### YAŞAYIR

*Xalq şairi Rəsul Rzaya*

Rəsul Rza razı qaldı həyatdan,
Oxuduğu azı qaldı həyatdan.
İlham aldı, o, kam aldı həyatdan.
Ona görə şeri, sözü yaşayır,
Sözlərində həyat özü yaşayır.

Dünya görür, aləm duyur, ərz anır,
Dağ-daş görür, dərə duyur, düz anır.
Şərəfinə dost, dayanma süz, anır,
Şənlik özü, büsat özü yaşayır,
Sözlərində həyat özü yaşayır.

Mərdlik nədir, dözüm nədir, sərt nədir,
Həqiqəti insanlara öyrədir.
Yalanları, böhtanları göynədir,
Safın safı, düzün düzü yaşayır,
Sözlərində həyat özü yaşayır.

Sevgi, vüsal, məhəbbətdir ayəsi,
Ülviyyətdir, sədaqətdir qayəsi.
Gözəllikdən yoğrulubdur mayəsi,
Arzu özü, mürad özü yaşayır,
Sözlərində həyat özü yaşayır.

Mövlud Teymur haray salır, hayqırır,
Vicdan deyir, qeyrət deyir, güc, qürur.
Azman deyib şerinə vur möhür:
Sənət özü, şöhrət özü yaşayır,
Sözlərində həyat özü yaşayır.

### SƏMƏD VURĞUN QƏLBƏN ONU BƏYƏNDİ

*Ustad aşıq Dədə Şəmşirə*

Dədə yurdu Dədə Şəmşir yetirdi,
Dədə Şəmşir şerə dünya gətirdi.
Yeni nəfəs, yeni boya gətirdi.
Səməd Vurğun qəlbən onu bəyəndi.

Sənətkardı, ustad aşıq, ozandı,
Şirin qoşma, bal gəraylı yazandı.
O bu yolda nə yoruldu, usandı,
Səməd Vurğun güc-zorunu bəyəndi.

Döyüş oldu, səngər oldu hər şeri,
Ərən oldu, igid oldu ər şeri.
Pələng oldu, aslan oldu şir şeri
Səməd Vurğun tutarını bəyəndi.

Çilik-çilik çiliklləndi şəlalə,
Gözdən itdi, itikləndi şəlalə.
Çox axtardı düzdə onu al lalə,
Səməd Vurğun şikarını bəyəndi.

Ovçu idi, ovu gözdən vururdu,
Saz çalanda o şahanə dururdu.
Elə şeir, elə nəğmə qururdu,
Səməd Vurğun vüqarını bəyəndi.

### MİKAYIL MÜŞFİQİN XATİRƏSİNƏ

Az yaşadın, çox yaratdın dünyada,
İlhamına şərbət qatdın dünyada.
Arzulara çox az çatdın dünyada,
Unutmarıq, şair, səni heç zaman,
Dünyamızdan cavan getdin, çox cavan!

Qara əllər səni aldı, apardı,
Qəlbimizə bir xal saldı, apardı.
Çinar kimi, tufan səni qopardı,
Unutmarıq, şair, səni heç zaman,
Dünyamızdan cavan getdin, çox cavan!

Şeirlərin məlhəm idi Mövluda,
Ruhun dönüb indii uçan buluda.
Heyif, heyif sənin kimi ustada,
Unutmarıq, şair, səni heç zaman,
Dünyamızdan cavan getdin, çox cavan!

### O YAŞAYIR

*Görkəmli şair Əliağa Kürçaylıya*

O elə bir bulaqdı ki, qurumaz,
O elə bir bağça-bağdı heç solmaz.
O çox həzin bir nəğmədi, xoş avaz,
Aşıq qardaş, Kürçaylıdan çal, oxu!

Nəğməsində dil açardı Mil, Muğan,
Bəzən də bir sel olardı gur axan.
Gah Qarabağ söyləyərdi, gah Şirvan,
Aşıq qardaş, Kürçaylıdan çal, oxu!

İnsan nədir, həyat nədir, sevgi nə?..
Dayanma, dur nəzər yetir şerinə.
Sən düşərsən möcüzələr sehrinə,
Aşıq qardaş, Kürçaylıdan çal, oxu!

Mövlud Teymur çox oxudu, onu, çox,
Harda olsa deyəcəkdir bunu çox.
O yaşayır, o ölməyib hələ yox,
Aşıq qardaş, Kürçaylıdan çal, oxu!

***İsmayıllı.***